**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ**

# SƏRƏNCAM

№ 213

Bakı şəhəri 07 may 2018-ci il

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin
anadan olmasının 95 illiyi münasibətilə gənc alimlər üçün
AMEA-nın Rəyasət Heyəti və Azərbaycan Həmkarlar İttifaqları
Konfederasiyasının birgə müsabiqəsinin nəticələri haqqında

AMEA prezidentinin 05 aprel 2018-ci il tarixli 160 nömrəli sərəncamına əsasən Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə AMEA-nın gənc alimləri üçün AMEA-nın Rəyasət Heyəti və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının birgə müsabiqəsi elan olunmuşdur. Müsabiqənin keçirilməsində əsas məqsəd aktual və müasir elmi problemlərin həlli ilə bağlı elmi tədqiqatlar aparan gənc alimlərin fəaliyyətini stimullaşdırmaq və onlara əlavə yaradıcılıq imkanları yaratmaqdır.

Müsabiqədə iştirak etmək məqsədilə AMEA-nın 46 gənc alimi sənədlərini AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinə təqdim etmişdir. Təqdim edilən sənədlərin təhlili AMEA prezidentinin 05 aprel 2018-ci il tarixli 160 nömrəli sərəncamı ilə yaradılmış Ekspert komissiyası tərəfindən həyata keçirilmişdir. Komissiya iddiaçıların əldə etdikləri nəticələri təhlil edərək yekun rəy hazırlamış və AMEA-nın prezidentinə təqdim etmişdir.

Komissiyanın rəyini nəzərə alaraq:

1. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə keçirilmiş müsabiqənin nəticələrinə görə 14 nəfər gənc alim mükafatlandırılsın.
2. Aşağıdakı gənc alimlər 1-ci yer üzrə qalib hesab edilsin:
    2.1. Akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun böyük elmi işçisi Paşayeva Ziyarət Nağı qızı;
    2.2. Qafqazşünaslıq İnstitutunun aparıcı elmi işçisi Kəlbizadə Elnur Həşim oğlu.
3. Aşağıdakı gənc alimlər 2-ci yer üzrə qalib hesab edilsin:

3.1. Radiasiya Problemləri İnstitutunun mühəndisi Nuruyev Səbuhi Musa oğlu;

3.2. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisi Həsənov Mehman Ağasəlim oğlu.

4. Aşağıdakı gənc alimlər 3-cü yer üzrə qalib hesab edilsin:

4.1. Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun kiçik elmi işçisi Mirzəyeva Səmra Tahir qızı;

4.2. Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi işçisi Baxşiyeva Ülkər Elman qızı.

5. Aşağıdakı gənc alimlər həvəsləndirici mükafat üzrə qalib hesab edilsin:

5.1. İnformasiya Texnologiyaları İnstitutunun kiçik elmi işçisi İsgəndərli Günay Yavər qızı;

5.2. Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun elmi işçisi Babayev Elmir Məqsəd oğlu;

5.3. Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun kiçik elmi işçisi Eyyubova Züleyxa İftixar qızı;

5.4. Dendrologiya İnstitutunun kiçik elmi işçisi Məmmədova Nigar Ziyafəddin qızı;

5.5. Nəsimi adına Dilçilik İnstitutunun böyük elmi işçisi Qəribli Aysel Nizami qızı;

5.6. Elm Tarixi İnstitutunun aparıcı elmi işçisi Həsənli Amal Rasim oğlu;

5.7. Mikrobiologiya İnstitutunun baş laborantı Səfərova Aytən Şamil qızı;

5.8. Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun böyük elmi işçisi Nəsirova Əfruz Səttar qızı.

6. Nəzərə alınsın ki, müsabiqənin qalibləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən mükafatlandırılacaqlar.

7. AMEA-nın İşlər idarəsinə (siyasi elmlər üzrə elmlər doktoru Fətəli Abdullayev) tapşırılsın ki, müsabiqənin qalibləri üçün müvafiq sertifikatlar hazırlansın və digər məsələlər həll edilsin.

8. Sərəncamın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT